**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№ 031-525**

**Bakı şəhəri** "25" may 2026-cı il

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

"Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması ilə bağlı tədbirlər haqqında" 2025-ci il 24 noyabr tarixli 068/474 nömrəli qərara dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra - Agentlik) 2025-ci il 11 dekabr tarixli 082/488 nömrəli qərarına əsasən, 2026-cı il 1 yanvar tarixindən etibarən diri ev quşlarının, o cümlədən 1 (bir) günlük cücələrin (1 (bir) günlük damazlıq və yumurtalıq cücələr, zoomağazalara, heyvanat parklarına və nümayiş məqsədilə gətirilən dekorativ quşlar istisna olmaqla) Azərbaycan Respublikasına idxalına müvəqqəti məhdudiyyət tətbiq olunmuşdur.

Ölkəmiz köçəri quşların miqrasiya marşrutları əhatəsində yerləşdiyinə görə mütəmadi olaraq yüksək epizootoloji risk zonasına daxildir və bu məqsədlə köçəri quşların yaz və payız miqrasiya mövsümündən asılı olaraq epizootoloji monitorinqlər keçirilir. 2025-ci il noyabr - 2026-cı il may ayları dövründə aparılmış monitorinqlərdə quşlara aid xüsusi təhlükəli xəstəliklərə rast gəlinməmişdir. Son dövrlərdə isə regionda quşların yoluxucu xəstəliklərinə görə epizootoloji vəziyyətin stabilləşməsi müşahidə edilir.

Qeyd olunanlar və aparılmış monitorinqlərin nəticəsi nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-2-ci və 3.0.33-4-cü yarımbəndlərinə əsasən

**Qərara alıram:**

1. Agentliyin 2025-ci il 11 dekabr tarixli 082/488 nömrəli və 2025-ci il 24 noyabr tarixli 068/474 nömrəli qərarları qüvvədən düşmüş hesab edilsin.
2. Yaşlı quşların yaratdığı epizootoloji risklər nəzərə alınaraq, ölkəyə diri quşların idxalı barədə Agentliyin 2022-ci il 01 fevral tarixli 010/185 nömrəli qərarının qüvvədə saxlanıldığı nəzərə alınsın.
3. Bu qərarın 1-ci və 2-ci bəndlərinin icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət ünvanlansın.
4. Agentliyin Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.
5. Agentliyin Aparatının Hüquq və insan resursları şöbəsi bu qərarın surətinin Agentliyin Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.
6. Agentliyin Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan yükün ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.
7. Qərar imzalandığı gündən qüvvəyə minir.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.
26.05.2026